*Aslanov Habil Hüseyn oğlu, dosent,*
*Bakı Dövlət Universiteti,*
*Email: dosent1966@mail.ru*

# İQTİSADİ İNTEQRASİYA ŞƏRAİTİNDƏ MİLLİ İQTİSADİYYATIN TƏNZİMLƏNMƏSİ

Müasir dünyada ölkələrin təsərrüfatlarının obyektiv birləşmə prosesi inteqrasiya adlanır. Onun ali məqsədi iqtisadi artım templərinin davamlılığına rəğmən əldə olan resurslardan maksimum dərəcədə səmərəli istifadəni təmin etməkdir. İnteqrasiyanın mühüm forması kimi ölkə təsərrüfatının beynəlmiləlləşməsi əsasında onun dünya təsərrüfatının bir hissəsinə çevrilməsidir. İnteqrasiyanın əlaməti kimi iqtisadiyyat sferasında ümumi siyasətin formalaşdırılması və reallaşdırılmasıdır. Beynəlxalq iqtisadi inteqrasiya əsas beş mərhələdən keçir: azad ticarət zonası, gömrük ittifaqı, ümumi bazar, iqtisadi ittifaq və iqtisadi və valyuta ittifaqı.

İnteqrasiya prosesləri iqtisadi regionlaşmanın inkişafına gətirib çıxarır ki, bunun da nəticəsində ayrı-ayrı ölkələr qrupu öz aralarında ticarət üçün, bir sıra hallarda isə istehsal amillərinin regionlararası hərəkəti üçün daha əlverişli şərait yaradırlar. İqtisadiyyatın strukturlarının uyğunlaşma məsələləri beynəlxalq əməkdaşlıq çərçivəsində inteqrasiya proseslərinin uğurla həyata keçirilməsinin ən vacib şərtlərindən biri kimi çıxış edir [3,s.76]. Hazırda Azərbaycan iqtisadiyyatının dünya təsərrüfat əlaqələri sisteminə inteqrasiyası iqtisadi siyasətin ən vacib və aktual məsələlərindən biri olmuşdur. İnteqrasiya yalnız ümumi milli maraqlara əsaslanmır o, eləcə də tənzimlənmə, koordinasiya sistemi və onların məcmusu kimi də çıxış edir. Eyni zamanda bu maraqlar inteqrasiya mexanizminin struktur həlqələrinin təkmilləşdirilməsi vasitəsidirlər. Öz növbəsində bu həlqələrin yaranması hər bir müəyyən dövrdə qarşılıqlı milli maraqların harmonik əlaqələndirilməsinə gətirib çıxarır. Milli maraqlar dövlətin tarixi və təbii inkişaf şəraiti ilə müəyyən edilir. Bu ondan irəli gəlir ki, hər bir dövlətin məhsuldar qüvvələri və istehsal münasibətlərinin ictimai əmək bölgüsünün inkişaf səviyyələri təbii, maddi, əmək resurslarının coğrafi yerləşməsi və mövcud tarixi ənənələri fərqlidir. Yalnız ayrı-ayrı dövlətlər arasında səmərəli əmək bölgüsü beynəlxalq əməkdaşlığı sosial gerçəkliyin vacib elementlərinə çevirməyin əsası kimi çıxış edə bilər. İnteqrasiya

prosesi ayrı-ayrı dövlətlərin və ümumilikdə dünyanın daha səmərəli inkişafı ilə bağlı milli və inteqrasiya məqsədli təyinatların əlaqələndirilməsi yollarının axtarılmağına zəmin yaradır. Beynəlxalq inteqrasiya proseslərinin üstünlüklərinin həyata keçirilməsi dünya təsərrüfat sistemində mərkəzyönlü meyllərin gücləndirilməsinin vacib amillərindəndir. Bu meyllər ölkələri hərtərəfli iqtisadi əməkdaşlığa cəlb edir və beynəlxalq inteqrasiya prosesinin sərhədlərini genişləndirir. Bu, yeni bir vəziyyət yaradaraq daxili və xarici amilləri nəzərə almaqla iqtisadi inkişaf səviyyələrinin yaxınlaşmasında mühüm rol oynayan maraqlar vasitəsi ilə problemlərin həllini tezləşdirir. Ümumi iqtisadi siyasətin və dünya təsərrüfatına inteqrasiyanın aspektləri üç qlobal iqtisadi məsələni üzə çıxarır:

- milli iqtisadiyyat çərçivəsində fəaliyyət göstərməyə şərait yaradan məqbul daxili siyasətin həyata keçirilməsi;
- investisiya prosesində iqtisadi təhlükəsizliyin təmin edilməsi yolu ilə milli iqtisadiyyat daxilində iqtisadi mühitin yaradılması;
- rəqabət qabiliyyətli sahələrin məhsuluna xarici tələbatın artması siyasətinin həyata keçirilməsi.

Son onilliklər ərzində baş verən iqtisadi qloballaşma prosesləri dünya təsərrüfatını vahid məkana çevirməkdədir. Dünyada gedən proseslər birmənalı şəkildə göstərir ki, XXI əsrdə bəşəriyyətin inkişaf strategiyasını xeyli dərəcədə məhz qloballaşma müəyyənləşdirəcəkdir. Qloballaşma prosesi yeni hadisə deyildir. Bəşəriyyət tarix boyu həmişə inteqrasiyaya, vahid siyasi, iqtisadi, yaxud sosial-mədəni məkanın bir hissəsi olmağa can atmışdır. Lakin dünya tarixində bəşəriyyət hələ heç vaxt bütün dünya məkanının sabit və təhlükəsiz inkişafını təmin etməli olan ümumi siyasi və iqtisadi məkan yaradılmasına könüllü cəhd etmək üçün ümumi məqsədə çatmağa belə yönəlməmişdir. XIX əsrdə başlanan, XX əsrdə fasilələrlə davam edən və hazırda da baş verən ümumdünya inteqrasiya prosesinin tarixi analoqu olmayıb və yoxdur, ona görə də ümumdünya inteqrasiyasının faydalı və mənfi cəhətlərinə ölçülüb-biçilmiş və əlaqələndirilmiş şəkildə yanaşmaq son dərəcə vacibdir.

Qloballaşma suveren dövlətlər arasındakı sədləri dağıdaraq cəmiyyətin daxilində sosial münasibətləri yeni məcraya salır, milli özünəməxsusluğu xüsusi dünyagörüşü çərçivələrinə salaraq sərt şəkildə məhdudlaşdırır. O, əvvəla, milli mədəniyyət və ənənələrin öncüllüyünü dağıdır, özünəməxsusluqdan uzaqlaşmanı gücləndirir, coğrafi və iqtisadi vəziyyətindən, siyasi quruluşundan, habelə milli mentalitetindən asılı olmayaraq cəmiyyəti qərbləşdirir. İkincisi, istər millətin, istərsə də dövlətin müstəqil inkişaf imkanlarının mahiyyətinə varmadan, səmərəsizliyi amansızcasına cəzalandırır və beynəlxalq səmərəlilik "çempion"larını, yəni inkişaf etmiş ölkələri isə daha da həvəsləndirir. Beləliklə, yeni minilliyin əvvəlində qloballaşma dünya təfəkkürünün və tərəqqinin yeni, öncül istiqamətinə çevrilmişdir. Hesab edilir ki, ümumiyyətlə, XXI əsr qloballaşma əlaməti altında keçəcəkdir. Qloballaşmanın milli məkanlara təsiri prosesində dövlətin daxili siyasi inkişafı böyük əhəmiyyət kəsb edir. Qloballaşma, eyni zamanda, dünya regionlarının və bütün ölkələrin qarşılıqlı asılılığının güclənməsi, habelə milli iqtisadiyyatın hüdudundan kənara çıxan, genişlənən ETT və bununla bağlı məhsuldar qüvvələrin transformasiyası ilə şərtlənir. Qeyd etmək lazımdır ki, belə bir şəraitdə

beynəlxalq miqyasda dünya gəlirləri formalaşmağa başlayır. Belə bir mühitdə fəaliyyət göstərən milli iqtisadiyyatlar üçün strateji məqsəd mümkün qədər həmin gəlirlərdən maksimum bəhrələnmə uğrunda apardığı mübarizə ilə şərtlənir [5, s.127].

Bəşər cəmiyyətinin çox əsrlik tarixində ilk dəfə olaraq müasir dövrdə dünya iqtisadiyyatı milli iqtisadiyyatların mexaniki cəmi kimi deyil, eyni ümumi fəaliyyət və inkişaf mexanizminə malik bir vahid tam kimi formalaşır. Bu zaman formalaşan qlobal iqtisadiyyat Yer kürəsinin bütün insanları və xalqları üçün planetin resurslarından mümkün qədər birgə istifadəsi bərabər imkanların yaradılmasını nəzərdə tutur. Qloballaşma iqtisadi həyatın inteqrasiyasının keyfiyyətcə yeni mərhələsidir. Ən başlıca qloballaşma ictimai-iqtisadi yetkinliyin müxtəlif səviyyəsində olan ayrı-ayrı sivilizasiya və mədəniyyətlərə məxsus ölkələrin inteqrasiyasına gətirib çıxarır. Bütün bu proseslər son nəticədə dünyada milli iqtisadiyyatların qarşılıqlı asılılığını artırmaqla dünyada müxtəlif modellərə əsaslanan bazar mexanizminin vahid bazara inteqrasiyasına çevrilməsinə səbəb olur. Belə bir şəraitdə iqtisadi proseslərin beynəlmiləlləşməsi özünün yüksək fazasına daxil olduğundan dünya bu gün nəinki fəlsəfi, eləcə də real olaraq vahid “dünyaya” başqa sözlə ayrıca bir ölkə-sistemə çevrilir. Bu gün dünyada baş verən iqtisadi qloballaşma prosesləri dünyaya açıq gözlə baxmağa, orada baş verən prosesləri müqayisəli şəkildə təhlil etməyə, ayrı-ayrı ölkələrin sosial-iqtisadi inkişaf sə-viyyəsindəki fərqlərin köklərini müəyyənləşdirməyə, habelə iqtisadi inkişafı, ölkənin seçdiyi inkişaf modelini demoqrafik proseslərlə – sivilizasiyanın əlaqəsini qiymətləndirməyə, bununla da mütərəqqi inkişaf yolunu seçmiş zəif ölkələrlə sosial iqtisadi inkişafın sürətləndirilməsinin başlıca mənbələri aşkara çıxarmağa imkan verir. Bu baxımdan hər bir ölkənin iqtisadiyyatının dövlət tərəfindən tənzimlənməsi zərurətə çevrilir [2,s.167].

Qloballaşma şəraitində ölkənin iqtisadi təhlükəsizliyi və müstəqilliyinin, ümumən milli iqtisadiyyatın inkişaf etdirilməsində xarici iqtisadi fəaliyyətin müstəsna rolunu nəzərə alaraq dövlət daima bu prosesə fəal müdaxilə edir, onu tənzimləyir.

Müasir dövrdə iqtisadiyyatın dövlət tənzimlənməsi heç bir sivil ölkədə inkar edilmir. Azad bazar iqtisadiyyatı müasir cəmiyyətin bütün sosial iqtisadi problemlərini həll etmək iqtidarında deyil, buna görə də bazar iqtisadiyyatının tənzimləyə bilmədiyi sahələrdə dövlətin iqtisadiyyata müdaxiləsi zərurət halını alır. Dünya təcrübəsi göstərir ki, hər bir iqtisadi sistemin normal fəaliyyətinin təmin edilməsində dövlət həlledici rol oynayır. İqtisadiyyata dövlət müdaxiləsi yolu ilə sosial problemlərin və digər cəmiyyət üçün vacib olan problemlərin həlli həyata keçirilir. Demək olar ki, bütün ölkələrdə dövlət iqtisadi, eləcə də sosial inkişafa köklü dərəcədə təsir qabiliyyətinə malikdir. Ona görə də iqtisadi biliklər çərçivəsində bu vacib və əhatəli problemə həsr olunmuş tədqiqat işləri və təhlillər aparılır. Bu baxımdan dövlətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsinin, dövlətin iqtisadiyyata müdaxiləsinin optimal nisbəti və hüdudlarının müəyyən edilməsi, gözlənilməsi müasir dövrdə iqtisadiyyatın dövlət tənzimlənməsinin təkmilləşdirilməsinin başlıca problemi hesab olunur. Dövlətin bazar iqtisadiyyatını tənzimlənməsini zəruri edən bir sıra amillər vardır ki, bunlara da aşağıdakıları aid etmək olar:

- xarici effektlər (eksternallar) probleminin bazar tərəfindən nəzərə alınmaması. Bir tərəfin digər tərəf üzərində yaratdığı idarə oluna bilməyən təsirlərinə eksternallar

deyilir. İqtisadi nəzəriyyədə mənfi eksternallar, əlavə xərclərin yaranmasına və ümumi vəziyyətin pisləşməsinə gətirib çıxaran effektlərə deyilir. Buna misal olaraq, ətraf mühitin çirklənməsini gətirmək olar.

- sosial ədalətlilik probleminə bazarın biganə olması. Bazar mexanizmi iqtisadi sosial ədalət məsələlərini həll etmək iqtidarında olmadığı üçün, dövlət bu situasiyanı vergilər, transfertlər və s. kimi mexanizmlərlə tənzimləyir.
- dövlət tənzimlənməsini zəruri edən makroiqtisadi situasiyaların meydana gəlməsi. Buraya inflyasiya proseslərini, işsizlik, makroiqtisadi qeyri-sabitlik, büdcə kəsrinin aradan qaldırılması problemlərini aid etmək olar.
- bazar mühitinin dövlət tərəfindən tənzimlənməsi zəruriliyi. Dövlət hüquqi tənzimləmə yolu ilə "oyun qaydalarını" təyin edir, onun əsas iqtisadi agentlər tərəfindən həyata keçirilməsinə nəzarət edir, ədalətsiz rəqabət formalarını aradan qaldırır, iqtisadi fəaliyyətin bir çox tərəflərini reqlamentləşdirir.
- antiinhisar tənzimlənməsinin obyekti olan inhisarlaşma tendensiyası. Bu tənzimlənmədə əsas yeri inhisar fəaliyyətinin məhdudlaşdırılması, rəqabətin stimullaşdırılması, açıq iqtisadiyyat siyasəti, yeni müəssisələrin yaradılması tutur:
- ictimai sərvətlərin, məhsulların istehsalında bazarın kifayət dərəcədə maraqlı olmaması;
- bazar mexanizmləri vasitəsilə fundamental elm və texnika sahəsində kəskin irəliləyişlərin qeyri-mümkünlüyü;
- ölkə regionlarının kəskin diferensiasiyası;
- dövlətlərarası səviyyədə xarici ticarət əlaqələrinin tarazlığını təmin etmək üçün iqtisadiyyatın tənzimlənməsi zəruriliyi və s. [4, s.6].

Dövlətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsi və dövlətin iqtisadiyyata təsiri üç istiqamətdə həyata keçirilir. Bunlar səmərəliliyin artırılması, bərabərliyin təmin edilməsi və makroiqtisadi sabitliyin stimullaşdırılmasıdır. Yəni dövlət iqtisadiyyatın əks təsirinə müvafiq olaraq müdaxilə siyasəti yerinə yetirməklə iqtisadi inkişafa təkan verir, dövlətin iqtisadiyyatı özünə tabe etdirmək cəhdi iqtisadi durğunluğa aparır, dövlət iqtisadi inkişafa bu və ya digər sahədə təsir göstərməklə onu deformasiyaya uğradır ki, bunun özü də inkişafda yeni və yaxud müsbət meyllərin yaranmasına gətirib çıxarır. Bazar iqtisadiyyatında dövlət fəaliyyətinin mümkün təsirini fərqləndirməklə onun rolunu müəyyən etmək mümkündür [2, s.103].

**İstifadə olunmuş ədəbiyyat:**


1. Azərbaycanın Statistik Göstəriciləri, "Səda" nəşriyyatı 2020.
2. Allahverdiyev H.B., K.S. Qafarov, Ə.M.Əhmədov Milli İqtisadiyyatın dövlət tənzimlənməsi, Ali məktəblər üçün dərslik, "Elm" nəşriyyatı, Bakı, 2006, 834 s.
3. Bayramov Ə.Ə Regional iqtisadi inteqrasiya – nəzəriyyə və praktika, Bakı 1997, 160 s.
4. Əhmədov M.A., Hüseyn A.C., İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları Metodik vəsait, Bakı, "İqtisad Universiteti", 2011, 120 s.
5. Əliyev A.Ə. "Azərbaycanın xarici ticarət-iqtisadi əlaqəsi". Bakı, "Ozan" nəşriyyatı, 2001, 203 s.